Ötən əsr Azərbaycan jurnalistikasının inkişafında danılmaz xidmətləri olan qələm sahiblərindən biri də Məmməd Əkbərdir. İndiki nəsil jurnalistlərin çoxu yəqin ki, onu yaxşı tanımırlar. Bu, eyni zamanda, jurnalist sənətinin xüsusiyyətləri ilə bağlıdır. İnsan ömrü boyu cəmiyyətdəki hadisələrə münasibətini bildirir, oçerklər, məqalələr, reportajlar yazır, bu yolla öz dövründəki ictimai rəyə müəyyən mənada təsir göstərir, amma bütün bunlar kitab kimi çap olunmayanda unudulur, qəzet bağlamalarının arasında qalır və yalnız mətbuat tarixini öyrənənlərin mövzusuna çevrilir.

# Xatirəmdəki Məmməd Əkbər

Məmməd Əkbərin bir neçə kitabı çıxsa da, indi o kitabları tapmaq da çətindir. Halbuki o, ötən əsrin 20-ci illərindən başlayaraq mətbuatımızın ən uzunömürlü yazarlarından biri olmuş, müxtəlif qəzetlərdə çalışmış, sonralar isə bütün həyatını "Ədəbiyyat və incəsənət"ə - indiki "Ədəbiyyat qəzeti"nə bağlamışdır. Dünyasını dəyişənə qədər keçdiyi yaradıcılıq yolu ötən əsrin demək olar ki, bütün əsas hadisələrinə güzgü tuturdu. Yəni 20-ci yüzilin bir neçə onilində baş verən elə bir ciddi ictimai, mədəni hadisə yox idi ki, qocaman jurnalistin diqqətindən kənarda qalsın. Bir sıra oçerkləri jurnalistikadan daha çox bədii nəsr nümunələri idi.

Onunla "Ədəbiyyat və incəsənət" qəzetində işləməyə başladığım günlərdən tanış idim. Hələ universiteti bitirməmişdim.

60-70-ci illərdə "Ədəbiyyat və incəsənət" qəzeti Azərbaycanın əsas fikir mərkəzlərindən biri idi. Sahə qəzeti olmasına baxmayaraq, ölkədəki bütün mühüm ictimai-siyasi və mədəni hadisələrə bu qəzetdə münasibət bildirilirdi. Həm də rəsmi orqanlardan fərqli olaraq, burada fikir azadlığı və bir növ müxalifətçilik ruhu vardı. Bədii əsərlər və ya mədəniyyət hadisələri qələm sahiblərinə həm də siyasi düşüncələrini və Azərbaycanın o günkü reallıqlarından narazılıqlarını ortaya qoymaq imkanı verirdi. Qəzetdə bir sıra tanınmış yazıçılar, alimlər, sənətşünaslar işləyirdilər. Müxtəlif xarakterli adamların bir yerə yığışmasından güclü kollektiv yaranmışdı. Əslində, bu tale işi idi və sevinirdim

(Ardı 6-cı səh.)

# Xatirəmdəki Məmməd Əkbər

*(Əvvəli 5-ci səh.)*

ki, gənc yaşlarımdan belə təmiz, millət üçün yanan, cəsarətli, bir-birini sevməyi və müdafiə etməyi bacaran adamların arasına düşmüşəm. Amma şübhəsiz, bu dəstədə Məmməd Əkbər ən koloritli, ən saf və sözün qədrini bilən adamlardan biri idi.

Bura bir jurnalistika məktəbi idi və mən Məmməd Əkbərdən, Sabir Əhmədlidən, Qabildən, Hüseyn Abbaszadədən, Yusif Əzimzadədən, Adil Babayevdən, Məmməd Arazdan, Ayaz Vəfalıdan və bir sıra adlarını çəkmədiyim qəzet əməkdaşlarından universitetin vermədiyi çox şeylər öyrəndim; redaksiya mənəvi cəhətdən son dərəcə təmiz mühit idi. Həmin adamların müəlliflərə və yazılara münasibətini indiki jurnalistikamız üçün də bir nümunə, örnək hesab etmək olar. Qəzetlərimizdə mövcud olan pintiliyi görəndə o insanların, o cümlədən Məmməd Əkbərin söz üstündə necə əsdiklərini xatırlayıram.

Qəzetə yeni gələndə bir otaqda otururduq. Aramızdakı yaş fərqinə baxmayaraq, dostlaşmışdıq. Həyatı və yaradıcılıq yolu, bu illərin ərzində görüşdüyü insanlar, 30-cu illərdə yaşadığı vahimələr, jurnalistikanı və ədəbiyyatı öz əsas hədəfindən uzaqlaşdıran ictimai mühit haqqında söhbətləri indi də yadımdadır. Bu söhbətlər onun nə qədər maraqlı və müstəqil düşüncəli bir insan olduğunu göstərirdi.

O, sakit, hadisələrə müdrik bir təmkinlə yanaşan, özünü gözə soxmayan, iddiasız, düzlüyü, ədaləti, halallığı hər şeydən yüksək tutan, eyni zamanda, cəmiyyətdəki bütün hadisələrə ürəkdən, yanğı ilə yanaşan bir adam idi və mənə elə gəlir ki, qızı Səidə Qocamanlının bu gün insan haqlarının müdafiəçisi olaraq daim müəyyən bürokratik maneələrlə və ədalətsizliklərlə mübarizə aparması da atasının ruhundan və amalından irəli gələn məsələdir. M.Əkbər Naxçıvanda və Bakıda bir çox qocaman ədiblərin, alimlərin, jurnalistlərin - bir sözlə, adı mədəniyyət tariximizdə əbədilik yaşayacaq insanların yaxın dostu olmuşdu. Bu barədə maraqlı, bəzən də lətifəyə bənzəyən, yumorla dolu əhvalatlar danışardı. Onun özü haqqında da çox baməzə söhbətlər gəzirdi və özü də bu söhbətləri təbəssümlə dinləyərdi.



*Soldan: Həbib Babayev, Sabir Əhmədli, Adil Babayev, Azad Əliyev, Məmməd Əkbər, Ələkbər Ziyatay, Qılman İlkin, Ənvər Yusifoğlu*

Bütün yazılarını barmaq boyda xırda bir karandaşla, ərəb əlifbası ilə, çox vaxt da saralmış kağız parçalarına yazırdı. Zarafata salıb nə qədər çalışsaq da, onu hamımızın yazdığımız qələmə öyrəşdirə bilmədik.

Yaşlı vaxtında da formasını itirməyən sıx saçları vardı. Zarafatla soruşurdum ki, Məmməd Əkbər müəllim, necə qulluq etmisiniz ki, saçlarınız belə gur qalıb? Deyirdi ki, qonşum Yaşar Qarayevə bax, saçlarını qorumaq üçün bir apteklik şampundan, bahalı sabunlardan istifadə elədi, amma saçı qalmadı; mənsə bütün ömrüm boyu saçımı paltar sabunu ilə yumuşam. Çox vasvası olma - bir şeyin üstündə çox əssən, onu tez itirərsən.

Yoldaşlarına qarşı çox diqqətli idi. Otaqda olmadığım vaxtda zəng vuran adamların hamısının adını qeyd edər, hamıya mehribanlıqla cavab verər, amma sonra da bu zənglər əsasında mənə sataşmağa bir mövzu tapardı.

Onun jurnalist taleyindən gileyləndiyini eşitməmişdim. Ancaq tək bir cümləsi bu məsələyə münasibətini dəqiqliklə göstərmişdi. O vaxt qəzetdə ədəbi işçi idim. Bir dəfə dedi ki, gələcəyin haqqında ciddi düşün: ədəbi işçi ol, amma əbədi işçi olma!

Bir dəfə ora-bura vurnuxduğumu görüb, "niyə narahatsan" - deyə soruşdu. Dedim, televiziyada apardığım veriliş üçün orta məktəbi əla qiymətlərlə qurtarmış uşaqlar tapmalıyam. Dedi ki, biri Gülşən!

Razılaşdıq, qızı Gülşən Əkbərovanı öz verilişimə dəvət etdim. Gülşən doğrudan da çox ağıllı, savadlı bir qız idi və elə ilk çıxışı o qədər bəyənildi ki, sonralar onu televiziyada işə dəvət etdilər.

Məmməd Əkbər haqsızlığa dözümsüz idi. Bu, xüsusən maaş alandan-alana, əhvalının yaxşı vaxtında daha aydın hiss olunurdu.

Baməzəliyi onu müəyyən nəsr əsərlərindəki personajların prototipinə çevirib. Bəzən özü bilərəkdən danışığa mövzu verirdi.

Yaşa dolandan sonra axtarıb-arayanı azalmışdı. Bəlkə buna görə ara-sıra evdən zəng vurub özü-özünü soruşurdu: "Mənə Məmməd Əkbər lazımdı! Onunla vacib işim var". Səsini tanısam da, üstünü vurmadan, "Məmməd Əkbər müəllim bu gün vacib iş dalıyca gedib, olmayacaq" - deyirdim.

Ömrünün axırına doğru tez-tez ölüm haqqında danışırdı. Hər dəfə də sözünü zarafatla bitirirdi.

Dilxor vaxtında "çətini ölənəcəndir, elə ki öldün, bütün işlər yağ kimi gedəcək" - deyirdi. Bu, onun dillərə düşmüş onlarla qanadlı ifadələrindən biridir.

Bir dəfə dedi: "Mən evdə ölmərəm ki, uşaqlarım qorxmasın".

Ömrünün sonu da belə oldu. Ölümünü qabaqcadan hiss edən fillər kimi evdən çıxıb yaxındakı parkda, skamyada gözünü yummuşdu.

Yəqin ki, başımız ayılanda, sözün, jurnalistikanın təməl daşlarını qoyan, amma ömrü boyu bunun qarşılığını tələb etməyən, özlərini qəzetçiliyin qara fəhləsi sayan bu insanların keçdiyi yola, yazılarına diqqət yetirməyə vaxt tapacaq və onların əsl dəyərini verəcəyik.

**Sabir RÜSTƏMXANLI**